2020-ci ilin dekabr ayında Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzinin birgə məlumatında qeyd olunduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nda dəyişiklik edilməsi haqqında 9 sentyabr 2021-ci il tarixli 252 nömrəli Qərara əsasən, "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq (regionlar üzrə)" ixtisasları II ixtisas qrupundan çıxarılıb III ixtisas qrupuna daxil edilmişlər.

Bu dəyişiklikdən irəli gələrək, Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi tərəfindən hazırlanmış qərar layihəsinə uyğun olaraq, 2022/2023-cü tədris ilindən başlayaraq bakalavriat səviyyəsinə qəbul imtahanları çərçivəsində III ixtisas qrupunun TC altqrupuna daxil edilən "Beynəlxalq münasibətlər" və "Regionşünaslıq" ixtisaslarının müsabiqəsində iştirak etmək istəyən abituriyentlər imtahanın II mərhələsində Azərbaycan (rus) dili və tarix fənləri ilə yanaşı coğrafiya fənnindən, DT altqrupuna daxil olan digər ixtisasların müsabiqəsində iştirak etmək istəyən abituriyentlər ədəbiyyat fənnindən imtahan verirlər. Hər iki altqrupa daxil olan ixtisasların müsabiqəsində iştirak etmək istəyən abituriyentlər isə II mərhələdə Azərbaycan (rus) dili, tarix və ədəbiyyat fənləri üzrə imtahan verdikdən sonra əlavə olaraq coğrafiya fənnindən fərq imtahanı verirlər. Beləliklə, abituriyentlər ali təhsil müəssisələrinə sənəd qəbulu zamanı III ixtisas qrupu üzrə elektron ərizə doldurarkən, öz istəklərinə uyğun olaraq ərizələrində təhsil almaq istədikləri ixtisas və yaxud ixtisaslara uyğun olan iki altqrupdan birini, yaxud hər iki altqrupu seçmək imkanına malik olacaqlar.

| **III qrup** | |
|---|---|
| **DT* altqrupu** | **TC** altqrupu** |
| **I mərhələ (cari ilin məzunları üçün – buraxılış imtahanı)** | |
| Azərbaycan (rus) dili –100 bal | |
| Riyaziyyat –100 bal | |
| Xarici dil –100 bal | |
| **II mərhələ** | |
| Azərbaycan (rus) dili–150 bal | |
| Tarix–150 bal | |
| Ədəbiyyat–100 bal | Coğrafiya–100 bal |
| **Bütövlükdə** | |
| 700 bal | 700 bal |

*DT altqrupuna daxil olan ixtisaslar – Hüquqşünaslıq, Tarix, Tarix müəllimliyi, Filologiya, Dil və ədəbiyyat müəllimliyi, Xarici dil müəllimliyi, Tərcümə, Dövlət və ictimai münasibətlər və s.

**TC altqrupuna daxil olan ixtisaslar - Beynəlxalq münasibətlər və Regionşünaslıq.